# Türkün qüruru göylərdədir



## Türkiyənin ilk zərbə pilotsuz qırıcı təyyarəsi - "Qızıl alma" bütün düşmənlərə gözdağıdır

Qardaş Türkiyə Respublikasının hərbi sənayesi möhtəşəm layihələri ilə dünyanı heyrətləndirməkdə davam edir. Xüsusən də ölkənin ilk milli Silahlı İnsansız Hava Aparatlarının (SİHA) istehsalçısı olan "BAYKAR Texnoloji" şirkətinin yeni-yeni müasir savaş sistemlərini təqdim etməsi dünyanın diqqətini növbəti dəfə Türkiyəyə yönəldib.

Çünki "BAYKAR Texnoloji" şirkəti "Akıncı" Silahlı İnsansız Hava Aparatının ardınca daha bir yenilik edib. Bu, Türkiyənin ilk pilotsuz zərbə qırıcı təyyarəsi hesab edilən "Bayraktar Qızıl alma"dır.

Türk dünyasının mifologiyasında "qızıl alma"nın çox maraqlı anlamı var. Özəlliklə Oğuz türkləri üçün "Qızıl alma", üzərində düşünüldükcə uzaqlaşan ancaq uzaqlaşdığı dərəcədə cazibəsi artan məfhumdur və ya gerçəkləşməsi arzulanan ümiddir. Yəni "Qızıl alma" məqsədə çatmaq üçün irəliləməyin simvolu kimi qiymətləndirilir.

"BAYKAR Texnoloji" şirkətinin bu pilotsuz qırıcı təyyarəyə "Qızıl alma" adını verməsi də göstərir ki, artıq Türkiyə dövləti müasir smart döyüş texnikalarının hazırlanmasında hədəfinə çatıb və bundan sonra istehsal ediləcək modern aparatlar dünya hərb tarixinə türkün imzasını yazdıracaq.













### "Bayraktar TB2", "Akıncı"nın ardınca - "Qızıl alma" sürprizi

"Qızıl alma" ilk dəfə olaraq ötən ay Samsunda keçirilən "TEXNOFEST Qaradəniz" aerokosmik festivalında nümayiş etdirilmişdi. Amma onun havada hansı imkanlara malik olmasını heç kim bilmirdi.

Bu gerçəklik isə dekabrın 14-də yaşandı. "BAYKAR"ın milli və öz kapitalı ilə inkişaf etdirdiyi "Qızıl alma" ilk uçuşunu 14 dekabrda uğurla həyata keçirdi və 18 dəqiqə davam edən ilk uçuşu ilə Türkiyə aviasiya tarixində yeni bir dövrün pərdəsini açdı. Bununla əlaqədar "BAYKAR" İdarə Heyətinin sədri və Texnologiya Lideri Selçuk Bayraktar "tvitter" hesabında yazdı: "20 ildir xəyalını qurduğumuz "Qızıl alma"nın ilk uçuşunu Baykar ailəsi ilə birlikdə qeyd etdik".

Daha sonra S.Bayraktar qeyd edir ki, "Qızıl alma" böyük zəhmət hesabına başa gəlib. Bundan ötrü tam 20 il çalışmaq lazım imiş: "Biz Türkiyənin ilk pilotsuz uçuş aparatı "Bayraktar Mini"ni 2004-cü ildə 6 kiloqramlıq təyyarə ölçüsündə uçurduq. Kiçik bir təyyarə idi. Sonra "Bayraktar Malazgirt" vertolyotu yaratdıq. Təəssüf ki, bürokratiya tərəfindən məhv edilmiş bir layihə oldu. Türkiyənin ilk robot helikopter layihəsi idi. Daha sonra 2009-cu ildə "Bayraktar TB1", "Bayraktar TB2" dünya aviasiya tarixinə damğasını vurdu. Qarabağ paradiqmalarını dəyişdirən, İdlibdə xidmət edən və SİHA-larla türk ordularının dünyada ilk qələbəsini qazanmasına kömək edən platforma inkişaf etdirildi.

Əlbəttə ki, Türkiyənin yeni-yeni pilotsuz uçuş aparatları, bu uğurları Azərbaycanı da sevindirir. Çünki iki qardaş ölkə arasındakı sarsılmaz birlik, strateji tərəfdaşlıq hazırda ən ali məqama yüksəlib. 44 günlük Vətən müharibəsində məhz "Bayraktar TB2" pilotsuz uçuş aparatları vasitəsilə düşmənin komanda müşahidə məntəqələri, silah-sursat anbarları, hərəkətdə olan hərbi texnika və canlı qüvvəsi, ölkəmizin ərazisinə atılması hədəflənən "S 300" və digər raket kompleksləri məhv edilmişdir. Əldə etdiyimiz şanlı zəfərdə Bayraktar PUA-larının əvəzsiz xidmətləri olmuşdur.

İki qardaş ölkənin iştirakı ilə bu il may ayının 26-29-da Bakıda ilk dəfə keçirilən "TEKNOFEST-Azərbaycan" festivalında Türkiyə daha bir yeni PUA-nı - "Akıncı"nı dünyaya nümayiş etdirdi. Xüsusi olaraq vurğulanmalıdır ki, Türkiyənin Təkirdağ əyalətinin Çorlu rayonundan səmaya qalxan "Bayraktar Akıncı" Gürcüstan üzərindən keçməklə təxminən 2 min kilometr məsafəni uğurla qət edib Azərbaycana gəldi.

"Akıncı"nın inkişaf etdirilməsinə 2017-ci ilin may ayında başlanılmışdı. Onun ilk uçuşu 2019-cu il dekabrın 6-da həyata keçib. İlk uçuş zamanı PUA 16 dəqiqə havada qalıb. Prototipin ikinci uçuşu isə 2020-ci il yanvar ayının 10-da baş tutub, həmin uçuş zamanı PUA bir saatdan artıq havada olub. "Akıncı"nın ikinci prototipinin ilk uçuşu 2020-ci il avqustun 13-də həyata keçirilib.

"Akıncı" təyyarələri havada azı 24 saat fasiləsiz qala bilir. 12 min metrdən çox yüksəklikdə uçur və bazadan 150 kilometr uzaqda, tam müstəqil rejimdə əməliyyatlar həyata keçirə bilir. Göyərtəsində 3 ədəd süni intellekt kompüteri olan "Akıncı" dronları eyni zamanda yerüstü kəşfiyyat aparır, sensorlar və yüksək həssaslığa malik kameralar vasitəsilə məlumatları toplayıb müstəqil rejimdə təhlil edir, habelə komanda mərkəzinə ötürür.

### "Vədimizdən geri dönmək istəmirik"

Səlcuq Bayraktar deyir ki, "Bayraktar Akıncı" 2019-cu ildə havaya qalxıb. Düz 3 il əvvəl və 2021-ci ildə TSK-nın inventarına daxil oldu. Təxminən bir il sonra "Qızıl alma" ilk uçuşunu etdi. Bütün bu mirasın üzərinə, inkişaf etdirdiyimiz bütün layihələrdə həmişə bunu hədəfləyirik. Heç vaxt verdiyimiz sözdən geri qalmaq istəmirik. 2023-cü ildə uçacağıq dedik, əsas məqsədimiz birinci uçmaq idi. İntensiv templə çalışaraq Cümhuriyyətimizin 100 illiyinə qədər "Qızıl alma" yetişdirməyi hədəflədik və şükür Allaha uçuş uğurlu oldu.

Mütəxəssislər deyirlər ki, "Qızıl alma" PUA-ların gələcəyidir. İndi dünyada istehsal edilən ən son insanlı 5-ci nəsil döyüş təyyarələrindən danışılır. Təbii ki, bu texnologiyanı bir az da qabaqlamaq olar. Hava hücumundan müdafiə silahları, tanklar, SİHA-ların zərbələri ilə dünyada paradiqma dəyişikliyi, bu təyyarələr növbəti addım olacaq. Dünya yavaş-yavaş anlayacaq ki, 5-ci nəsil döyüş təyyarələrinin də dövrü bitib.

Danılmaz gerçəklikdir ki, son illərdə bu istiqamətdə modern, ən iri və ən yüksək strateji təyinatlı funksiyalara malik Silahlı İnsansız Hava Aparatlarının (SİHA) istehsalı ölkənin hərbi sənayesinin qüdrətinin göstəricisi olmaqla yanaşı, onun nüfuzunun daha da yüksəlməsini şərtləndirən mühüm amildir.

### "Qızıl alma"nın döyüş imkanları

"Qızıl alma"nın havaya qalxması bir daha dünyaya göstərdi ki, Türkiyə hərbi sənayesinin potensialı Suriyada, Liviyada, 44 günlük İkinci Qarabağ və Rusiya-Ukrayna müharibələrində özünü mükəmməl effektli silah kimi göstərən "Bayraktar TB2", "Akıncı" Silahlı İnsansız Hava Aparatları (SİHA) ilə yekunlaşmır. Bu gün Türkiyə hərbi sənayesinin ən qabaqcıl yeniliklərindən biri SİHA-ların daha mükəmməl variantlarının hazırlanmasıdır.

Pilotsuz təyyarə turboreaktiv mühərrik, inkişaf etmiş süni intellekt sistemi ilə təchiz olunub, "Baykar" mütəxəssislərinin dediyinə görə, yeni PUA "aqressiv manevr" qabiliyyətinə malikdir və çətin nəzərə çarpır. Uçuş üçün ona minimum uzunluqda zolaq lazımdır ki, bu da ona məsələn, gəminin göyərtəsindən istifadə etməyə imkan verəcək.

"Qızıl alma" iki əsas modifikasiyada istehsal olunacaq. Ukrayna istehsalı olan AI-25TLT mühərrikli "Qızıl alma" səsdən yuxarı sürətə yaxın olacaq.

"Qızıl alma"nın maksimum uçuş çəkisi təxminən 6000 kq-dır, bunun 1500 kq-dan çoxu faydalı yükün payına düşür, sursat-yükqaldırma qabiliyyəti 1000 kq-dır, sürəti 700 km/saatdır, əməliyyat hündürlüyü 10 000 m, maksimal uçuş müddəti 5 saat, hərəkət radiusu isə 926 kilometrdir.

"Baykar" və Ukrayna arasında bağlanmış müqaviləyə əsasən, Ukraynadakı Bayraktar zərbə pilotsuz təyyarələri istehsal edən zavod təkcə özünü təsdiq etmiş TB2 modelini deyil, həm də yeni pilotsuz qırıcıları - "Bayraktar Akıncı" və "Bayraktar Qızıl alma"nı istehsal edəcək. Türkiyə şirkəti özü də 2023-cü ildə reaktiv "alma"ların kütləvi istehsalına başlamaq niyyətindədir.

Mütəxəssislər qeyd edirlər ki, bəzi sahələrdə Bayraktar "Qızıl alma" gələcəkdə xeyli bahalı olan "F-16" və ya "F-35" təyyarələrinin bir çox xüsusiyyətlərini mənimsəyə bilər. Artıq hətta "Akıncı"nın faydalı yükgötürmə qabiliyyətinin "F-16" səviyyəsində olması bunu deməyə əsas yaradır.

### "Qızıl alma" dünya döyüş tarixində inqilab edəcək"

Səlcuq Bayraktar deyir ki, "Qızıl alma" qısa uçuş-enmə zolağına malik gəmilərə qalxma və enmə qabiliyyətinə də malikdir. O, məhz belə dizayn edilib. Bütün bu texnologiyalar çox böyük əzmlə, motivasiya ilə hazırlanır:

"Bütün bunları bu qabiliyyətlə bir araya gətirmək böyük bir güc çarpanını meydana gətirir. "Qızıl alma" bu qabiliyyətlə idarə olunanda, dünya müharibəsi tarixində inqilab edir. Mən onu da tarixə yazmaq istərdim".

Onu da vurğulayaq ki, artıq dünya mətbuatı "Qızıl alma"nın Türkiyə üçün yaradacağı üstünlüklərdən yazır. ABŞ-də nəşr olunan müdafiə jurnalı "Defense News" Türkiyənin ilk pilotsuz döyüş təyyarəsi "Qızıl alma"nın ilk uçuşu ilə bağlı hazırladığı yazıda qeyd edir ki, yeni nəsil pilotsuz döyüş təyyarəsi Türkiyə Hərbi Dəniz Qüvvələrinin gələcək flaqmanı LHD Anadolu hava qüvvələrinin onurğa sütunu olması gözlənilir.

ABŞ-nin müdafiə saytı Türkiyənin yeni nəsil döyüş təyyarəsi olan "Qızıl alma"nı tərifləyib. Xəbərdə pilotsuz döyüş təyyarəsinin hava qüvvələrinin onurğa sütununu təşkil edəcəyi və bir neçə ay ərzində uçmağı bacardığı qeyd edilib.

Göründüyü kimi, qardaş Türkiyənin hərbi sənayesi möhtəşəm layihələri ilə dünyanı heyrətləndirməkdə davam edir. Səlcuq Bayraktarın söylədiyi kimi, hələ bu uğurların ardı gələcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***